

# Mərkəzi Elmi Kitabxanada könüllülük fəaliyyəti: təcrübə və inkişaf

**Könüllülük fəaliyyətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin dövründə isə dövlət dəstəyi ilə daha sistemli şəkildə inkişaf etdirilmişdir. Bu fəaliyyət məsuliyyət hissinin formalaşmasında, eləcə də kollektivdə işləmə və təşkilati bacarıqların inkişafında mühüm rol oynayır.**

Prezident İlham Əliyevin rəhbərliyi altında, könüllülük hərəkatı yalnız cəmiyyətə xidmət etmək məqsədilə həyata keçirilən fəaliyyət olmaqla qalmamış, eyni zamanda gənclərin özünüinkişaf etməsinə, komandada işləmə qabiliyyətlərini inkişaf etdirməyə və liderlik xüsusiyyətlərini təşviq etməyə yönəlmiş əsas bir vasitə halını almışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında (MEK) həyata keçirilən könüllülük fəaliyyəti çərçivəsində kitabların sistemləşdirilməsi, oxuculara məlumatların təqdim edilməsi və elektron resurslarla işləmək mənim üçün önəmli təcrübə olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası 1925-ci ildən fəaliyyət göstərir. Əvvəlcə Azərbaycan SSR Elmlər Akademiyasının kitabxanası olaraq təsis edilən bu qurum, zamanla ölkə və dünya elminin inkişafını dəstəkləyən böyük elmi resurs mərkəzinə çevrilmişdir. Kitabxana, elmi tədqiqatçıların ehtiyaclarını qarşılamaq məqsədilə müxtəlif sahələr üzrə elmi nəşrlər və resurslar toplamışdır. Müasir dövrün tələblərinə uyğun olaraq, elektron resurslarla zənginləşdirilən MEK, rəqəmsallaşdırma və yeni texnologiyaların tətbiqi ilə həm yerli, həm də beynəlxalq tədqiqatçılara geniş xidmətlər təqdim edir. Kitabxana, elmi tədqiqatları dəstəkləyərək, məlumatların effektiv şəkildə sistemləşdirilməsi və müasir elektron xidmətlərin təmin edilməsində mühüm rol oynayır.

Mərkəzi Elmi Kitabxanada Azərbaycan kitabxana məkanında ilk dəfə olaraq "MEK könüllüləri" fəaliyyətə başlayıb. AMEA-da ilk dəfə könüllü hərəkatı məhz Mərkəzi Elmi Kitabxanada yaranmışdır.

**Könüllü fəaliyyətində gördüklərim və öyrəndiklərim**

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında könüllü fəaliyyətinə başlamağım mənim üçün böyük bir təcrübə oldu. Könüllülük fəaliyyətimdən əvvəl Mərkəzi Elmi Kitabxananın oxucusu olmuşam. Abituriyentlik dövrümdə YÖS (Yabancı Öğrenci Sınavı) imtahanına hazırlaşarkən və 2017-ci illərdə Türk Dili imtahanı (TYS) üçün hazırlıq prosesində, MEK-in zəngin türk dilli ədəbiyyat və resurslarından istifadə edərək imtahanı C1 sertifikatı ilə başa vurmuşam. Lakin, MEK-dəki könüllülük fəaliyyəti mənim üçün yeni bir mərhələ oldu və bu proses həm şəxsi, həm də peşəkar inkişafımda mühüm rol oynadı. Proqram üç ay müddətində həyata keçirilir və bu proqramın tərtibatçısı MEK-in Elmi katibi Şəbnəm Rüstəmovadır. Könüllülər hər həftə əvvəlcədən müəyyən edilmiş şöbələrə yönləndirilir. Bu müddət ərzində əməkdaşların nəzarəti altında iş prosesləri ilə yaxından tanış olub və müxtəlif tapşırıqları yerinə yetiririk. Hər şöbədə çalışmaq, həm təşkilatçılıq, həm də əməkdaşlıq bacarıqlarını gücləndirir, eyni zamanda iş mühitində daha geniş biliklər əldə etməyimizə kömək edir.

MEK-in könüllüləri olaraq, təşkil olunan bir sıra tədbirlərdə iştirak edirik. Bunlardan ən yadda qalan nümunələrdən biri, MEK-in 100 illik yubiley tədbiri (21.11.2025) çərçivəsində keçirilən beynəlxalq elmi konfrans olmuşdur.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və digər tanınmış elm nümayəndələri iştirak edirdi. Konfransa həmçinin Türkiyədən və Özbəkistandan kitabxana direktorları qatılmışdılar. Biz könüllülər də bu elmi konfransda fəal iştirak etdik. Mədəni irsin qorunmasında rəqəmsallaşma, kitabxanaların missiyası, türk dövlətlərində mədəni irsin qorunması və müasir çağırışlar kimi mövzular müzakirə edildi və biz də bu müzakirələri dinlədik. Həmçinin, tədbirin sonunda İsa müəllimlə yaxından tanış olub, onunla xatirə şəkili çəkdirdik.

Bu kimi tədbirlər, biz könüllülərin elmi və peşəkar inkişafımıza böyük töhfə verir, həmçinin geniş perspektivlər açaraq bizə yeni bilik və bacarıqlar qazandırır.

**Elektron resurslarla işləmək və rəqəmsallaşmanın əhəmiyyəti**

Elektron resurslar və rəqəmsallaşma, məlumatların əldə olunması və idarə olunmasında çox böyük rol oynayır. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında könüllü fəaliyyətim zamanı, elektron resurslarla işləməklə kitabxana işlərinin təşkilini və idarə olunmasını daha yaxşı anladım, eyni zamanda məlumatların müasir üsullarla necə sistemləşdirildiyini öyrəndim. Rəqəmsal sistemlər, ənənəvi kitablara əlavə olaraq, məlumatı daha sürətli əldə etməyə imkan verir. Bu, yalnız elmi tədqiqatlar üçün deyil, həmçinin gündəlik məlumat əldə etməyi də effektiv edir.

Abituriyent olduğum vaxtlar oxucu olaraq gəldiyim və sonradan könüllü fəaliyyət göstərdiyim Mərkəzi Elmi Kitabxanada bir sıra müasir dəyişikliklər baş vermişdir. Xüsusilə, kitabxananın direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynovun rəhbərliyi altında əhəmiyyətli dəyişikliklər və yeniliklər həyata keçirilmişdir. Bunlara elektron resurslardan istifadənin genişləndirilməsi, süni intellekt əsasında qurulmuş səsli axtarış sisteminin tətbiqi, səsli kitabların könüllülər tərəfindən səsləndirilməsi və oxucular üçün müasir oxu mühitinin yaradılması daxildir. Elektron resurslardan istifadə imkanı genişləndikcə və informasiya xidmətləri daha çevik və əlçatan hala gəldikcə, MEK-in elmi dünyadakı rolu daha da güclənmişdir. Könüllü olaraq apardığım müşahidələrə əsasən, nadir fondların rəqəmsallaşdırılması yalnız elmi irsin qorunması üçün deyil, həm də oxuculara asan istifadə imkanı yaratmaq baxımından böyük əhəmiyyət daşıyır. Texnologiyanın inkişafı, yeni elektron oxu mühitlərinin yaradılması və beynəlxalq elmi resurslara çıxışın artırılması MEK-in müasir kitabxana modelinə uyğun olaraq inkişaf etdiyini göstərir.

*MEK-dəki könüllülük fəaliyyətim həm şəxsi, həm də peşəkar inkişafım üçün çox faydalı oldu. Bu təcrübə sayəsində kitabxana işinin təşkili və idarə olunması ilə bağlı praktik bacarıqlar qazandım. Rəqəmsallaşma və müasir texnologiyaların tətbiqi isə kitabxananın işini gücləndirir, elmi tədqiqatlar üçün yeni imkanlar açır və məlumatın daha sürətli, əlçatan şəkildə istifadə olunmasını təmin edir.*

**Nəzrin MƏMMƏDLİ**
**MEK könüllüsü**